

# «İxrac neft və qaz boru kəmərlərinin təhlükəsizliyinin təmin edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 15 aprel tarixli, 685 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

1. «İxrac neft və qaz boru kəmərlərinin təhlükəsizliyinin təmin edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 15 aprel tarixli, 685 nömrəli fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 4, (II kitab), maddə 183; 2005-ci il, № 4, maddə 300) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci bənd üzrə:

1.1.1. dördüncü abzasda *«Azərbaycan Respublikası Ali Dövlət Hakimiyyəti və İdarəetmə Orqanlarını Baş Mühafizə İdarəsinin rəisi»* sözləri *«Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin rəisi»* sözləri ilə əvəz edilsin;

1.1.2. beşinci abzas aşağıdakı redaksiyada verilsin:

*«Kəmaləddin Heydərov—Azərbaycan Respublikasının fövqəladə hallar naziri»;*

1.1.3. yeddinci və səkkizinci abzaslar aşağıdakı redaksiyada verilsin:

*«Natiq Əliyev—Azərbaycan Respublikasının sənaye və energetika naziri*

*Əli Abbasov—Azərbaycan Respublikasının rabitə və informasiya texnologiyaları naziri»;*

1.1.4. doqquzuncu abzasda *«Natiq Əliyev»* sözləri *«Rövnəq Abdullayev»* sözləri ilə, on ikinci abzasda *«Azərbaycan Respublikası milli təhlükəsizlik nazirinin müavini—Sərhəd Qoşunlarının Komandanı»* sözləri *«Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi»* sözləri ilə, on dördüncü abzasda *«Məmməd Beydullayev»* sözləri *«Çingiz Məmmədov»* sözləri ilə, on beşinci abzasda *«Aydın Əliyev»* sözləri *«Əsgər Abdullayev»* sözləri ilə əvəz edilsin;

1.1.5. on altıncı abzas çıxarılsın.

1.2. 3-cü və 4-cü bəndlərdə *«Azərbaycan Respublikası Ali Dövlət Hakimiyyəti və İdarəetmə Orqanlarını Baş Mühafizə İdarəsi»* sözləri *«Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti»* sözləri ilə, 4-cü bənddə

*«Azərbaycan Respublikasının Dövlət Sənayedə İşlərin Təhlükəsiz Görülməsinə Nəzarət və Dağ-Mədən Nəzarəti Komitəsi»* sözləri *«Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi»* sözləri ilə əvəz edilsin.

2. Bu fərman imzalandığı gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Prezidenti***

***İlham ƏLİYEV***

***Bakı şəhəri, 29 noyabr 2006-cı il***

***№ 482***